# 60 yaşlı gəncin manifesti

## Mübariz Həmidov: "Kollektivdən heç kimin sual dolu baxışını görməmişəm"



***İncəsənət İnstitutunda təhsil aldığı illərdə Bakıdakı bütün teatrların tamaşalarına baxarmış. Dövlət Gənc Tamaşaçılar Teatrı isə onun ən çox maraq göstərdiyi sənət ocaqlarından olub. Təyinatını da məhz bu teatra veriblər, kənardan maraqla izlədiyi görkəmli sənətkarlarla eyni səhnəni bölüşməyin, tamaşalarda baş rollar oynamağın sevincini yaşayıb. Bir müddət Mədəniyyət Nazirliyində məsul vəzifədə çalışandan sonra yenidən doğma kollektivə qayıdıb, amma bu dəfə başqa bir missiya ilə. Artıq 10 ildir ki, Dövlət Gənc Tamaşaçılar Teatrının direktorudur. Görünür taleyin yazdığı yazı ən məşhur yazıçı və dramaturqların uydurduğu əhvalatlardan daha maraqlı olurmuş...***

***Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru, Azərbaycanın Əməkdar artisti, Rusiya Federasiyasının Kalmıkiya Respublikasının Əməkdar incəsənət xadimi Mübariz Həmidov 60 ildir taleyin onun üçün yazdığı ssenarini oxuyur. Bəzən sevinir, bəzən kədərlənir, təəccübləndiyi anlar da olur. Yubileyi ərəfəsindəki söhbətimizdə də bu ovqatı sezmək çətin deyil.***

**- Mübariz bəy, rəhbərlik etdiyiniz teatrın fəaliyyəti, uğurları, mövsümün yekunları, yeni yaradıcılıq planları barədə çoxlu söhbətlərimiz olub. Budəfəki müsahibəni fərqli mövzuda qurmaq istəyirəm, buna tutarlı səbəb də var- iyulun 12-də 60 yaşınız tamam olur. Deməli, dəyərli oxucularımız Mübariz Həmidovun ömrünün 60 illik hesabatı ilə tanışlığa köklənə bilərlər...**

- Direktor kimi rəhbərlik etdiyim kollektivin işləri barədə saatlarla danışmağa, gördüyümüz işlərin hesabatını verməyə hazıram. Amma özüm haqqında danışmaq səmimi deyim ki, mənə xeyli çətin gəlir. Üstəlik, yubiley məsələsi işimi bir az da müşkülə salır...

**- Niyə?**

- Çünki 60 yaşım olmasına heç özüm də inanmıram.

**- O gün teatrınızda çalışan bir neçə aktyorla söhbət edəndə söz arası yubileyiniz barədə danışdım. Mənə elə təəccüblə baxdılar ki, 60 rəqəmini deməyə peşman oldum...**

- Görürsən, heç onlar da inanmır.

**- Nə təklif edirsiz, tarixi saxtalaşdıraq?**

- Qarşımı kəsən elə bu tarix məsələsidi, qardaş, ondan qaçmaq olmur. Orta məktəbdə oxuyarkən 55-60 yaşlı insanları görəndə onların bu yaşa necə gəlib çatdıqlarına təəccüblənirdim. İndi özüm də gəlib həmin yaşa çatmışam, amma sözün açığı, qocaldığımı hiss eləmirəm. Görünür, yaradıcılıqla məşğul olan, ömrünü sənətə verən insanların hamısında bu hisslər olur. Rəqəmlərin aşağı-yuxarı olmasından asılı olmayaraq, əsas həyatı mənalı, halal yaşamaqdı, cəmiyyət üçün faydalı ola bilməkdi. Mən də bu prinsiplərə əməl etməyə çalışmışam, əziyyətdən, çətinlikdən qorxmamışam, əldə etdiklərimi də zəhmət çəkərək qazanmışam. Allahın verdiyi istedadın da bu məsələdə rolu az olmayıb.

**- Nə vaxt hiss etdiniz ki, Allah bu istedaddan sizdə də pay verib?**

- Orta məktəbin 8-ci sinfində oxuyanda. Elə o vaxtdan da qərar verdim ki, aktyor olacam. Baxmayaraq ki, ailədə, qohum-qonşuda məni gələcəyin həkimi kimi görürdülər.

Göyçaydakı 6 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyatını Ağamirzə Vahidov adında gözəl bir müəllim tədris edirdi. Hamının Mirzə müəllim kimi tanıdığı bu zəhmli pedaqoqun şeir deməyi, hekayə oxumağı canlı bir tamaşa idi. Aktyorluğa marağım ədəbiyyat müəllimimizin diqqətindən yayınmamışdı. Hər dəfə bu mövzudan söhbət düşəndə məni ruhlandırır, məsləhətini əsirgəmirdi.

Yeri gəlmişkən, bu gün yaradıcılığını "Ədalət" qəzetində maraqla izlədiyim istedadlı jurnalist Məzahir Əhmədoğlunun kiçik qardaşı ilə bir sinifdə oxumuşam. Məzahir müəllim o dövrdə komsomol işində çalışdığından rayonda hamı ona "Komsomol Məzahir" deyirdi. Biz məktəblilər də onun uzun bakenbordlarına, səliqəli və son dəbə uyğun geyiminə maraqla baxırdıq.

**- Ağamirzə müəllim öz şagirdini necə ruhlandırdısa Bakıya gəlib korifey sənətkarların qarşısında imtahan verdi...**

- Orta məktəb partasının arxasından durub Bakıya gələn bir gəncin Ədil İsgəndərov, Mehdi Məmmədov, Rza Təhmasib, Tofiq Kazımov kimi nəhəng rejissor və pedaqoqların qarşısında imtahan verməsi elə-belə məsələ deyildi. İndinin özündə də onların adı gələndə həyəcanlanıram. Həm də fəxr edirəm ki, Allah-Təala ölməz sənətkarların imtahanından üzüağ çıxmağı qismətimə yazıb.

O zamanlar İncəsənət İnstitutu adlanan ali təhsil ocağının tələbə biletinin verdiyi üstünlükdən yararlanıb bütün teatrların tamaşalarına baxırdım. Tələbə yoldaşlarımdan fərqli olaraq, hətta Kukla Teatrına gedirdim. Çünki aktyor barmaqlarının kuklalara belə demək mümkünsə, həyat verməsi mənə maraqlı gəlirdi. Ən çox getdiyim sənət ocaqlarından biri isə Dövlət Gənc Tamaşaçılar Teatrı idi. Teatrın repertuarındakı bütün tamaşalara baxmışdım.

**- Bunun da bir səbəbi var idi yəqin...**

- Orta məktəbdə oxuyanda televiziya vasitəsi ilə bu teatrın "Mənim mehriban balam" adlı tamaşasına baxıb sanki sehrlənmişdim. Yusif Vəliyevin, Süleyman Ələsgərovun ifasını izlədikcə qəribə, o vaxtacan mənə məlum olmayan hisslər keçirmişdim. Bu gün birgə çalışdığım Almaz Mustafayeva həmin tamaşada oğlan rolunu ifa edirdi. Televizordan sonsuz maraqla o tamaşanı izlədikcə gah özümü həmin oğlan rolunda, gah da Yusif müəllimin, Süleyman müəllimin yaratdıqları rollarda görürdüm. İnstituta qəbul olunandan sonra bayaq dediyim kimi, tez-tez bu teatrın tamaşalarına baxırdım, sanki arzuma çatmaq, ona daha yaxın olmaq istəyirdim.

**- 1979-cu ildə Dövlət Gənc Tamaşaçılar Teatrına təyinat alanda necə sevindiyinizi təsəvvür eləmək çətin deyil...**

- Bütün insanlar ən böyük arzularından birinə çatanda yəqin elə eyni hissləri keçirirlər. Məktəbli olanda televiziyadan, tələbəlik vaxtı tamaşaçı zalından izlədiyim böyük sənətkarlarla eyni səhnəni bölüşmək, tərəf-müqabili olmaq xoşbəxtliyini yaşadım. 2000-ci ilə qədər teatrda aktyor kimi çalışdım.

**- Aktyor kimi çalışdığınız o illərdə "Direktor olsaydım filan məsələni başqa cür çözərdim" kimi fikirləşdiyiniz anlar olurdumu?**

- Desəm ki, heç vaxt bu cür fikirləri ağlımdan keçirməmişəm, səmimiyyətdən uzaq olar. Təbii ki, bəzən belə düşündüyüm anlar olurdu. Görkəmli aktyor Mustafa Mərdanovun oğlu Məmməd Mərdanovun və Kamal Əzizovun rəhbərliyi altında bu teatrda çalışmışam. Sözsüz, bəzi məqamlarda narazı qaldığım, daxilən barışmadığım məsələlər olub. Fikirləşmişəm ki, əgər direktor olsaydım, bu problemi fərqli həll edərdim.

**- Konkret hansı məsələlər sizi qane etmirdi?**

- Teatrla, mədəniyyətlə bağlı Moskvada nəşr edilən qəzet və jurnallarda digər respublikaların, müxtəlif ölkələrin teatr kollektivləri, keçirilən müxtəlif festivallar barədə oxuyarkən "Bizim kollektiv niyə bu teatrlarla əlaqə qurmur, festivallara getmir?"-deyə düşünürdüm. Sözsüz, onu da bilirdim ki, bu yalnız direktorun həll edə biləcəyi məsələ deyil, amma hər halda buna cəhdlər göstərilməsini istəyirdim.

Narazı qaldığım digər bir məsələ isə içki ilə bağlı idi. O vaxtlar bəzi işçilər işə içkili gəlirdi, hətta bəzən aktyorlar səhnəyə bu vəziyyətdə çıxırdı. Rəhbərliyin bu məsələyə sakit yanaşması məni təəccübləndirirdi. Onların bu cür münasibətini qəbul edə bilmirdim, çünki teatr əməkdaşının işə içkili gəlməsini tamaşaçıya, tərəf-müqabilə ən böyük saygısızlıq hesab edirdim. Elə bu gün də o fikirdəyəm.

**- 2006-cı ildə yenidən bu teatra qayıtdınız, bu dəfə direktor kimi. Görmək istədiyiniz işləri reallaşdırmaq üçün yaxşı imkan qazandınız...**

- Doğma kollektivə bir gün direktor kimi qayıdacağım görünür taleyimdə var imiş. Ona görə də elə ilk gündən bu missiyanı sevərək, məsuliyyətini dərk edərək yerinə yetirməyə başladım. Ötən 10 ildə Dövlət Gənc Tamaşaçılar Teatrının əldə etdiyi uğurlar göz qabağındadır. İncəsənətin digər növlərinə olduğu kimi, teatra da böyük diqqət və qayğı göstərən dövlətimizin sayəsində teatrımızın binası yenidən tikilərək möhtəşəm bir sənət abidəsi kimi kollektivin, tamaşaçılarımızın istifadəsinə verildi. Biz də yaradılan bu şəraitdən səmərəli istifadə etməyə çalışmaqla, teatrla bağlı dövlət proqramlarının icrasına öz töhfəmizi veririk. Ölkədə həyata keçirilən teatr islahatlarına uyğun olaraq Kamera və Gənclər Teatrının kollektivləri də bizim teatrla birləşdirildi, Dövlət Gənc Tamaşaçılar Teatrının yaradıcılıq yönü, yolu daha da dəqiqləşdi. Bu gün 86 nəfərlik aktyor truppamız var. Qafqazda və MDB məkanında ən böyük aktyor truppasına malik teatrların önündə gedirik. Yaradıcı heyəti, texniki işçiləri əlavə etsək, böyük bir kollektiv olmağımızın tam mənzərəsi yaranar.

**- Aktyor Mübariz Həmidovun xarici ölkə teatrları ilə əməkdaşlıq, festival və qastrollar barədə arzularını direktor Mübariz Həmidov həyata keçirməyə başladı...**

- Son illər teatrımızın yaradıcılıq əlaqələri genişlənib, Rusiya Federasiyası Kalmıkiya Milli Dram Teatrı ilə çox uğurlu müştərək layihələr həyata keçiririk. Teatrımız dünyanın müxtəlif ölkələrində keçirilən nüfuzlu festivallarda Azərbaycanı layiqincə təmsil edir, mükafatlar qazanır. Təkcə bu ilin mayında dörd xarici ölkədə qastrolda və festivalda iştirak etdik. Azərbaycan teatrları arasında Londonda ilk dəfə tamaşa oynamaq məhz bizim teatra nəsb oldu. Dövlət Gənc Tamaşaçılar Teatrı dünyanın 100-dən çox teatrını öz ətrafında birləşdirən Uşaq və Gənclər Teatrları Beynəlxalq Assosiasiyasının (ASSİTEJ) üzvüdür. Təkcə direktorun və kollektivin gücünə bu uğurları qazanmaq təbii ki, mümkün deyil. Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi bizə bu məsələlərdə daim dəstək olub və gündəlik işimizdə bu dəstəyi hiss edirik.

**- Bir zamanlar narazı qaldığınız digər problemi necə həll edə bildiniz? Daha səhnəyə heç kim içkili çıxmır?**

- Nə aktyorlar, nə də yaradıcı və texniki heyətdəki işçilər içkili bu teatra gələ bilməzlər. Ona görə yox ki, qapıda kimsə onların ağzını iyləyəcək və ya hansısa aparatdan keçəcəklər. Direktor təyin olunduğum ilk gündən bu məsələyə münasibətimi kollektivə çatdırmışam, onlar da sağ olsun, başa düşüblər. Bu teatrın yetirməsi olduğumdan hamı ilə rahat dil tapıram, bir-birimizi bir kəlmədən başa düşürük. Bu 10 ildə kollektivdən heç kimin sual dolu baxışını görməmişəm.

**- İki fəxri adınız, vəzifəniz var, qaldı bircə baba titulunu daşımaq...**

- Oğlum dövlət qulluqçusudur. Hər dəfə evlənmək söhbəti ortaya gələndə mənə və anasına deyir ki, çox keçməz sevindirərəm sizi. Qızım isə Moskvada Xalqlar Dostluğu Universitetində təhsil alır. Övladlarımın hər ikisindən razıyam. Ümid edirəm ki, inşallah baba titulu daşımaq da mənə qismət olacaq.

**Etibar CƏBRAYILOĞLU**